# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsinə doğru irəliləyir

## Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

Keçən dərs ilinin yekunlarına görə müvəffəqiyyət faizi 99,9% keyfiyyət göstəricisi isə 63,8 % olmuşdur.

Görülən işlərin nəticəsində IX siniflərdə buraxılış imtahanlarının yekunları aşağıdakı məktəblərdə rayonun ümumi göstəricisindən yüksək olmuşdur. Kiçik Pirəli kənd tam orta məktəbində 100 %, şəhər 5 nömrəli tam orta məktəbində 85,2 %, Bunud kənd tam orta məktəbində 88,5 %, Çarxana kənd tam orta məktəbində 84,6 %, Aydınqışlaq kənd tam orta məktəbində 82,1 %, Nohurqışlaq kənd tam orta məktəbində 83,7 %, Zalam kənd tam orta məktəbində 81,3 %, Zarağan kənd 2 nömrəli tam orta məktəbində 85,5 % və Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbində 80 % olmuşdur.

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Zöhrə Mirzəyeva təhsildə qazandığı uğurlara və səmərəli fəaliyyətinə görə möhtərəm Prezidentimizin sərəncamı ilə Respublikanın "Əməkdar müəllimi" fəxri adına, eləcə də ilin ən yaxşı müəllimi adına, şəhər 2 nömrəli tam orta məktəbi isə qazandığı yüksək göstəricilərə görə "Ən yaxşı məktəb" adına layiq görülmüşdür.

Ümumi orta təhsil kursunu bitirən 1377 şagirdin 14 nəfərinə fərqlənmə şəhadətnaməsi, tam orta təhsil kursunu bitirən 1419 məzunun isə 3 nəfərinə qızıl medal verilmişdir.

Ümumtəhsil məktəblərində təlimin keyfiyyətinin yüksək olmasını təsdiq edən amillərdən biri və əsası məzunlarımızın respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunması göstəricisidir. Bu sahədə rayonumuz son illərdə davamlı olaraq respublikamızın qabaqcıl regionları sırasına daxil olmuşdur. 2016-cı ildə rayonumuzun məzunları həmin ənənəni qoruyub saxlaya bilmiş, ali məktəblərə sənəd verən 760 məzunun 424 nəfəri tələbə adını qazanmışdır. Onlardan 36 nəfər 600-dən çox bal toplamışdır.

Məzunları yüksək bal toplayaraq ali təhsil ocaqlarına qəbul olunan məktəblərin sırasında şəhər 1,2,3,4,5 nömrəli, Vəndam qəsəbə 1 nömrəli, Nohurqışlaq, Bunud, Hacıalılı, Həmzəli, Məlikli, Soltannuxa, Dizaxlı, Yemişanlı, Mıxlıqovaq kənd tam orta məktəbləri xüsusilə fərqlənmişlər.

2016-2017-ci dərs ilindən etibarən ümumtəhsil məktəblərində hazırlıq qrupları fəaliyyətə başlamışdır. Rayonda hazırlıq yaşlı 1654 uşağın 1050 nəfəri bu qruplara, 1748 şagird isə birinci siniflərə qəbul edilmişdir. Eləcə də cari dərs ili üçün ayrı-ayrı fənlər üzrə təhsil nazirliyinə 10 vakant yer təqdim edilmiş və həmin yerlərə işçi təyin edimişdir.

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən cari ilin doqquz ayı ərzində bütün tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, bir sıra maraqlı mədəni-kütləvi tədbirlər hazırlanmışdır. Qəbələ Mədəniyyət Mərkəzində Meksikanın Azərbaycan Respublikasındakı Səfirliyinin təşəbbüsü ilə meksikalı rəssam Marqarita Moralesin fərdi yaradıcılıq sərgisi keçirilmişdir.

Abşeron rayonunda ilk dəfə keçirilən Beynəlxalq Dolma Festivalında və Şəki şəhərində keçirilən III Beynəlxalq Milli Şirniyyat Festivalında mədəniyyət və turizm şöbəsi III yerə layiq görülərək diplom və bürünc medala layiq görülmüşdür.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə rayonda dünyanın tanınmış musiqi kollektivlərinin və musiqiçilərinin qatıldığı Qəbələ VIII Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Azərbaycanla yanaşı Avstriya, Bolqarıstan, Rusiya, Türkiyə, Ukrayna, ABŞ, İtaliya, Fransa, İspanya, İsrail və Kubadan olan görkəmli musiqiçilərin ifasında Azərbaycanın və dünyanın görkəmli bəstəkarlarının klassik əsərləri səsləndirilmişdir. Eləcə də festival çərçivəsində gənc pianoçuların IV Beynəlxalq Müsabiqəsi keçirilmişdir.

Həmçinin rayonumuzda Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Kulinariya Assosiasiyasının yaxından köməkliyi ilə "Qəbələ IV Beynəlxalq Mürəbbə Festivalı" keçirilmişdir. Festivalda Türkiyə, Rusiya, İran, Çin - Sintszyan-Uyğur, Qana, Şimali Kipr Türk Cümhuriyyəti, Ukrayna və Özbəkistanın şirniyyat ustaları ilə yanaşı Azərbaycanın 30 bölgəsinin şirniyyatçıları öz qabiliyyətlərini nümayiş etdirmişlər. Festivalda münsiflərin rəyi əsasında ən yaxşı mürəbbə hazırlayanlar müxtəlif nominasiyalar üzrə mükafatlandırılmış, qaliblərə kubok, medal və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Qəbələdə 18 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 5 otel beşulduzludur. Hazırda mehmanxana tipli obyektlərdə bir gündə 2500-ə yaxın turisti qəbul etmək imkanı vardır. Həmin obyektlərdə göstərilən yüksək xidmətlərin nəticəsində rayonumuza olan turist axını gündən-günə artır.

**Hörmətli tədbir iştirakçıları!**

Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 2016-cı ilin doqquz ayı ərzində stasionar xəstələrin sayı 2157 nəfər, cərrahi əməliyyatların sayı 83 olmuşdur. Bu müddət ərzində 972 doğuş baş vermiş, 2 ev doğuşu olmuşdur. Perinatal ölümlərin sayı 4, körpə ölümü (0-1 yaş) 3 olmuş, neonatal ölüm isə baş verməmişdir.

Ambulator müalicəyə müraciət edən xəstələrin sayı 164369, şəkərli xəstələrin sayı 1563, o cümlədən ilk dəfə aşkar olunanalar 115 nəfər müəyyən edilmişdir. Onkoloji xəstələrin sayı isə 570, ilk dəfə aşkar olunanalar 96, ölənlər isə 55 nəfər olmuşdur.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə 6544 nəfər planlaşdırılmışdır. Onlardan 2777 nəfər müayinəyə cəlb edilmişdir. Müayinə olunanların 1081 nəfəri təhsil, 711 nəfəri səhiyyə, 501 nəfəri otel, 386 nəfəri qida şəhərciyi, 98 nəfəri isə digər sahələrdə çalışan işçilərdir.

18 yaşa qədər uşaqların və yeniyetmələrin icbari dispanserizasiyası dövrü olaraq aparılmış, 20512 nəfər dispanser müayinəsinə cəlb olunmuşdur. Müayinə olunan 3979 uşaqda müxtəlif xəstəliklər aşkarlanmışdır.

Hər il olduğu kimi bu il də ölkə Prezidentinin tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin fevralın 15-dən mayın 2-dək kütləvi tibbi müayinəsi keçirilmişdir. Rayonda bu tədbirin mütəşəkkil keçirilməsi üçün rayon icra hakimiyyəti ilə birlikdə tərtib edilmiş qrafikə uyğun olaraq əhali mərkəzi xəstəxanada və müalicə diaqnostika mərkəzində müayinələrə cəlb olunmuşdur. Eyni zamanda bütün qəsəbə və kəndlərdə həkim briqadaları tərəfindən ilkin müayinələr aparılmaqla dərin tibbi müayinəyə ehtiyacı olanlar aşkar edilərək müayinələrə cəlb olunmuşdur. Bu müddət ərzində əhalinin 18 yaşdan yuxarı 67346 nəfəri müayinə edilmişdir. Müayinələrin nəticəsinə əsasən 1752 nəfərə ambulator, 212 nəfərə stasionar müalicə təyin edilmiş, 85 nəfər isə müalicə üçün Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Qəbələ Müalicə Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 15421, endoskopiya kabinetində müayinələrin sayı 1337, EKQ müayinələrinin sayı 3672, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 270, stasionar şöbəyə daxil olan xəstələrin sayı 733 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 698 olmuşdur. Hemodializ şöbəsində 58 xəstədə 3878 hemodializ seansı, şüa diaqnostika şöbəsində 13680 USM müayinələri keçirilmişdir. Kompüter tomoqrafik müayinələri 1026, rentgen müayinələrin 7301, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 5733 və kliniki laboratoriyada müayinələrin sayı isə 248482 olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində mərkəzdə keçirilmiş qanvermə aksiyasında 200 nəfərdən çox könüllü iştirak etmiş və 198 nəfər qan vermişdir.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzində 2016-cı ilin ötən dövrü ərzində profilaktik peyvəndlərdən hepatit «B»-yə qarşı 966, göyöskürək, difteriya və tetanusa qarşı 1128, qızılça, parotit, məxmərəyə qarşı 2559, polimelitə qarşı 6068, pnevmoniya əleyhinə 3590 peyvənd olunmuşdur.

Profilaktik tədbirlərin nəticəsidir ki, son 10 il ərzində rayonda uşaqlar arasında difteriya, göy ösgürək, tetanus, qızılça, parotit, məxmərək kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Rayon GEM-in bakterioloji laboratoriyasında 74 su nümunəsi bakterioloji müayinə olunmu?dur.

GEM tərəfindən rayon ərazisində yerləşən yaşayış məntəqələrində sanitar abadlıq işlərinin aparılması, su təshizatı mənbələrində sanitariya mühafizəsinin təşkil olunması, tullantıların toplanılması və daşınması ilə əlaqədar aşkar olunan nöqsanlar barədə rayonun kommunal təsərrüfatı, su-kanal idarələrinə, inzibati ərazi nümayəndəliklərinə və bələdiyyələrə təkliflər verilmişdir.

Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2016-cı ilin doqquz ayı ərzində 49 tədbir həyata keçirilmişdir. Bunlardan 28 tədbir gənclərlə iş sahəsini, 21 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir. Həyata keçirilən tədbirlər dövlət siyasətinin düzgün təbliğinin təşkili, hüquq tərbiyəsi, cinayətkarlıq hallarına qarşı mübarizə, vətənpərvərlik tərbiyəsi işinin inkişaf etdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, bədən tərbiyəsi və idman sahəsində isə yeniyetmə və gənc idmançıların aşkar olunması, idmanın kütləviliyinin təmin edilməsi, dərəcəli idmançıların hazırlanmasından ibarətdir.

Rayonda 2016-cı ilin doqquz ayı ərzində bir neçə beynəlxalq və respublika səviyyəli yarış və tədbirlər keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Tour d'Azerbaidjan-2016" Beynəlxalq velosiped turniri, ulu öndərin xatirəsinə həsr edilmiş olimpiya atıcılıq növləri üzrə III Beynəlxalq Qran-Pri yarışları, "Gənc xilasedici və yanğınsöndürən" V respublika birinciliyi və IV Beynəlxalq yarışı, Olimpiya atıcılıq növləri üzrə gənclər arasında Dünya Kuboku yarışları, yeniyetmələr arasında sərbəst-güləş, cüdo və taekvondo idman növləri üzrə Qəbələ rayon Açıq turnirləri və s. belə tədbirlərdəndir. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təqvim planına müvafiq olaraq keçirilən respublika tədbirlərində rayonumuzun nümayəndələri layaqətlə təmsil olunmuşdur.

Qəbələ Olimpiya İdman Kompleksi 2016-cı ilin doqquz ayında idmanın inkişaf etdirilməsi, olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması və s. fəaliyyət istiqamətləri üzrə öz işini müsbət təşkil etmişdir. Kompleksin bir günlük xidmətlərindən 338 nəfər ödənişli əsasla, 278 nəfər isə ödənişsiz əsasla istifadə etmişdir. Ödənişsiz əsasla istifadə edənlər olimpiya idman növləri üzrə təşkil olunmuş seksiyalarda məşğul olan idmançılardır. Qəbələ Olimpiya İdman Kompleksində 2 Olimpiya İdman növü üzrə (Sərbəst Güləş, Boks) ödənişsiz seksiyalar fəaliyyət göstərir ki, bu seksiyalarda 45 nəfər məktəb yaşlı uşaqlar idmanla məşğul olurlar.

Qəbələ Peşə Məktəbini 2016-2017-cı tədris ilində 6 peşə üzrə 113 nəfər məzun bitirmişdir. Tədris ilində elektrik avadanlıqlarının təmir və xidməti üzrə elektrik montyoru (ödənişli), kimyəvi-bakterioloji analiz laborantı (ödənişli), çilingər-santexnik, qaz avadanlıqlarının təmir və istismarı üzrə çilingər peşələri üzrə şagird qəbulu aparılmışdır. Məktəbə rayonumuzun iqtisadi inkişafı nəzərə alınaraq tam orta təhsil bazasından tütün ustası ixtisası üzrə qəbul planı verilmiş və həmin qrupa şagird qəbulu başa çatdırılmışdır.

Məlum olduğu kimi rayonda yeni peşətədris kompleksinin tikintisi başa çatmaq üzrədir. Bu məqsədlə pilot layihə olaraq, 3 yeni ixtisas- aqroservis mütəxəssisi, bitkiçilik mütəxəssisi və heyvandarlıq mütəxəssisi ixtisasları üzrə şagird qəbulu aparılmışdır. Həmin ixtisaslar üzrə tədris prosesi modul təhsil proqramları üzrə keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən peşə-ixtisas təhsili sisteminin formalaşdırılması və onun müasirləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzini 171 nəfər məzun bitirmişdir. Onlar aşpaz, mehmanxana inzibatçısı, əməliyyatçı mühasib, kompüter operatoru, ofisiant, barmen, bufetçi, qənnadıçı, şirniyyatçı peşələrinə yiyələnmişlər.

(Ardı 7-ci səhifədə).